**UOT 3231; 327, 39**

# İSLAM "KOLLEKTİV OYUNÇU" KİMİ

**A.A.GÜLƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***afet.gul.@box.az.***

*İslam dünyası həm təbii-coğrafi, regional və ehtiyatlar, həm də etnosiyasi, demoqrafik, dil, tarixi-mədəni və digər münasibətlərdə özlüyündə çoxşaxəli, çox müxtəlifli, təktərkibli olmayan mürəkkəb toplum nümayiş etdirir. Müxtəlif hesablarla müasir dövrdə islam dininə etiqad edən 2 milyarda yaxın insan vardır ki, bu da dünya əhalisinin 1/5 hissəsi deməkdir. İslam dünyasında baş verən proseslərin kifayət qədər mürəkkəb və çoxşaxəli olduğunu nəzərə alaraq məqalədə islam dünyasının müasir beynəlxalq münasibətlər sistemində rolu nəzəri və praktiki baxımdan araşdırılmağa çalışılmışdır.*

**Açar sözlər**: müsəlman, qərb, islam, din, oyunçu

"Soyuq müharibə" başa çatdıqdan sonra dünyada islam dövlətlərinin həm iqtisadi, həm də siyasi sahədə rolu artmaqdadır. Dünyanın 35 ölkəsində müsəlmanlar əhalinin əsas hissəsini, 29 ölkədə nüfuzlu azlıq təşkil edir, 38 ölkədə isə islam rəsmi dövlət dini olaraq qəbul olunub. İslam dünyası yalnız milli dövləti təmsil edən xalqlardan ibarət deyil, həm də öz dövlətləri olmayan, amma özlərini həmin dünyanın bir hissəsi hesab edən xalqlar və etnoslardan ibarətdir. İslam dünyasından kənarda da müsəlman icmalarının sayı kifayət qədər yüksək sürətlə artır. Aydındır ki, bir sıra müsəlman ölkələrinin dünya iqtisadiyyatında tutduqları əhəmiyyətli yer böyük karbohidrogen ehtiyatlarının hesabınadır. Neft ixrac edən ölkələr üçün yüksək həyat səviyyəsi xarakterikdir. Bu gün bir sıra ərəb ölkələri həyat səviyyəsinə görə bir sıra inkişaf etmiş Avropa ölkələrini də keçib. Amma bu gün müsəlman ölkələrinin əksəriyyəti yoxsulluq şəraitində yaşayırlar. İslam dünyasında baş verən proseslər kifayət qədər mürəkkəb və dəyişkəndir.

Siyasi sahəyə gəlincə ümumi şəkildə onu demək olar ki, son illərdə, xüsusilə 11 sentyabr hadisələrindən sonra islam dünyasına qərbdə terror təhlükəsi kimi, ya da qərb sivilizasiyasına barışmaz antaqonist kimi baxılır. Digər tərəfdən isə islam ölkələri sırasında qərbin yaxın müttəfiqləri var, məhz həmin ölkələrlə ABŞ-ın müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq haqda müqavilələri var. Siyasi sistemləri, siyasi mədəniyyətləri, cəmiyyətdə dinin rolu,

hüquq normaları və institutları baxımından və beynəlxalq əmək bölgüsü sistemində oynadıqları rola görə də islam dövlətləri arasında fərqlər vardır.

Millətin və milli ideyanın formalaşmasında din böyük rol oynayır. Öz universallığı gücü ilə dünya dinləri etnik, dil, siyasi və insanlar arsında olan digər fərqləri silmək çağırışları göstərir ki, milli özünüdərk və din arasında müəyyən bağlılıq var. Müəyyən vəziyyətdə bu və digər xalq qonşu xalqlardan fərqini hiss edərək hər hansı bir dini seçə bilər.

Bütün müsəlman ölkələrini vahid təşkilatda birləşdirən başlanğıc aydındır ki, islam dinidir. İslam prinsip etibari ilə mahiyyətinə görə millətüstü bir dindir və bəzi müəlliflərin qeyd etdiyi "islam millətçiliyi" fikri yanlışdır. Klassik islam millətləri ayırmır, belə ki, bütün iman gətirənlər hansı millətə mənsub olmasından asılı olmayaraq vahid müsəlman hümməti hesab olunurlar. Analoji olaraq xristianlıqda yunan, polyak, romalı, fransız olmadığı kimi, islamda da ərəb, fars, türk və s. yoxdur yalnız imanlı müsəlman var.

İslam dininin özündə müxtəlif şaxələrin, fərqlərin, ayrılıqların olduğu inkar olunmur ki, bu bir çox hallarda açıq ziddiyyətlərə və hətta qarşıdurmaya səbəb olur; Nəzərə almaq lazımdır ki, həqiqətdə təkcə xalq bu və digər məzhəb sistemini seçmir, eyni zamanda sonuncu da uyğun xalqın sosial-mədəni və mental xarakterinə uyğunlaşır. Bunu əyani olaraq Şimali Qafqazın bəzi xalqlarında görmək olar. Belə ki, bu yerlərdə bəzən adətlər şəriətin bir hissəsinə çevrilir, bəzən də şəriət normaları adət halını alır. Buna görə də bəzi tədqiqatçılar islam dünyasının dünya siyasətinin müstəqil vahid mərkəz rolunu inkar edir, ona dünya arenasında fəaliyyət göstərən başqa qüvvələrin aləti rolunu ayırırlar. Bütün bunlar bir daha onu sübut edir ki, din deyil, xalq öz ruhuna daha uyğun olan dini seçir.

Müasir beynəlxalq münasibətlər sistemində islamın "subyekt" olması məsələsinə üç yanaşmanı qeyd etmək olar. Birinci, islam dünyasına vahıd kollektiv subyekt kimi baxılır ki, bu halda bir və ya bir neçə əks aktorun olması təxmin olunur. "islam dünyası" dedikdə yaranan sualları aşağıdakı kimi cavablandırmaq olar:

- müsəlmanların əksəriyyət təşkil etdiyi ölkələr;
- müsəlman əhalinin çoxluq təşkil etdiyi ölkələr;
- islam dövlətlərinin transmilli birlikləri (İƏT, İslam dünyası Liqası, Ərəb Dövlətləri Liqası və s.), dünyəvi və dini milli müsəlman təşkilatları.

Əsas əks-aktor rolunda qərb olur, bəlkə də daha dəqiq antinomianın iki əsas hissəsi müxtəlif göstəricilər əsasında formalaşıb və çox zaman qərbin əvəzinə xristian və yaxud yəhudi-xristian dünyası deyilir. Əslində qərb dünyasında çoxlu müsəlman icmaları var ki, onların ictimai-siyasi həyatda rolu artmaqdadır. İslam oyunçuları özləri bu yanaşmaya meyl edirlər. Bununla belə, "qərb-islam dünyası" antitezisi elmi tətqiqatların , beynəlxalq və milli layihələrin obyekti olaraq daha çox adətə çevrilir.

İslam oyunçularının əksəriyyəti belə yanaşmaya tərəfdar olmaya meyllidirlər. Bundan çıxış edərək onların bəziləri 2001-2002-ci illərdə Əfqanıstanda

və 2003-cü ildə İraqada baş verənləri bir sıra islam ölkələri, ümumiyyətlə islam dünyasına qarşı aparılan hərbi əməliyyatlar kimi qəbul edirdilər. Beləliklə, bu vəziyyətdə birinci yanaşma səfərbərlik aləti kimi istifadə olunur.

İkinçi yanaşmada, müstəqil aktor kimi qeyd olunan dövlətlər və transmilli strukturlar çıxış edirlər. Bu müəyyən vəziyyətlərdə onların qərbə münasibətdə əks-aktor kimi birgə çıxış etmələri istisna olunmamaqla onların mövqelərindəki fərqi izah etməyə imkan yaradır və"islam dövlətlərinin" sinifləşdirilməsi elə xırdalanmış olur ki, onların beynəlxalq münasibətlərdə rolundan danışmaq öz əhəmiyyətini itirir. Əlbəttə, qeyd olunduğu kimi, İslam dünyasında belə dərin ziddiyyətlərin olması, sözsüz Qərb üçün ənənəvi olaraq vacib amildir.

İkinci Dünya müharibəsindən sonra islam dövlətləri arasında dəfələrlə qanlı toqquşmalar olduğu halda (1980-88-ci illərdə baş vermiş İran-İraq müharibəsi 2 milyona yaxın insanın məhvinə səbəb olub), qərbdə yalnız hərbi gücün tətbiq olunduğu iki münaqişə - Folklend adaları (1982) və NATO qoşunları tərəfindən Yuqoslaviyanın bombalanmasını (1999) göstərmək olar. Sünni və şiələr arasında yaranan qarşıdurmalardan çox vaxt qərb dövlətləri xüsusilə istifadə edirlər.

Üçüncü yanaşmada, bir halda ki, onlar öz fəaliyyətlərində dinlə ümumilikdə az əlaqəsi olan əsas məqsəd və məsələlərlə rəhbərlik edirlər, islamın rolu haqda dövlət və ya qeyri-dövlət aktorları ilə bağı olmadan danışılır. Bununla yanaşı, onlar hamısı inkişaf dərəcəsilə qloballaşan dünyanın hissələrinə çevrilirlər, hələ ki bu gün qərb oyunun əsas qaydalarını müəyyənləşdirir. Burada islam məhz din kimi, sivilizasiya kimi çıxış edir.

İslam kollektiv transmilli siyasi oyunçu olmaq üçün çoxdan çalışır. Bu və digər formada bu yolda hazırlanmış bütün layihələr islamda olan bir konsepsiyaya əsaslanır - hümmət - müsəlman birliyi, bütün etniklərarası və dövlətlərarası sədlərin silindiyi birlik konsepsiyası. Ümumilikdə, islamın siyasiləşməsi XX yüzilliyin ikinci yarısından etibarən sürətlənməyə başladı. Buna bütün dünya ictimaiyyəti üçün xarakterik olan geniş miqyaslı sosial-iqtisadi, sosial-mədəni, geosiyasi, demoqrafik səbəblərdən əlavə, ərəblərin İsraillə müharibələrdə məğlubiyyəti, Fələstin probleminin gərginləşməsi, panislamizm ideyasının böhranını da səbəb göstərirlər (1, 492).

XX yüzilliyin 80-ci illərindən, xüsusilə də 90-cı illərindən etibarən Qərb ictimai fikrində islam sivilizasiyasının inkişaf etmiş dünyaya düşmənçiliyi inamları formalaşmağa başlayır. İranda islam inqilabı, 1979-cu ildə Səudiyyə Ərəbistanının şərq əyalətlərində baş qaldırmış etirazlar, mübariz islamçılar (mehdiçilər) tərəfindən Məkkədə Böyük məscidin ələ keçirilməsi, İslamabad-da ABŞ səfirliyinin yandırılması, 1980-ci illərin əvvəllərində Küveyt və Bəhreyndə xarici ölkə səfirliklərinə hücumlar, 1981-ci ildə Ə.Sədatın öldürülməsi, 1983-cü ilin oktyabrında amerikan və fransız kazarmalarında partlayışlar "islam təhlükəsi" ifadəsinin yaranması ilə nəticələndi. Tədqiqatçıların, jurnalist, publisist və siyasi xadimlərin bir hissəsi insanları "sivil dünyaya" "cihad" elan olunması fikri ilə qorxutmağa başladılar.

Nəticədə, qərb ictimaiyyətinin bir hissəsində islam tərəqqinin düşməni, zor və geriliklə assosiasiya olunan fenomen münasibəti formalaşmağa başlayır. S.Xantinqton fikrinə görə müasirlik – müsəlman müharibələri əsridir". Onun fikrinə görə "müsəlmanlar bir-birlərinin əleyhinə, eyni zamanda qeyri-müsəlmanlara qarşı döyüşürlər, nəinki, digər sivilizasiyalara məxsus xalqlarla. Müsəlman müharibələri "soyuq müharibə"ni əvəz edib. S.Xantinqton İran-İraq müharibəsini (1980-cı ildə başlanan), sovet qoşunlarının Əfqanıstana müdaxiləsini (1979), 1990-cı ildə İraqın Küveytə aqressiyasını, "Səhrada tufan" əməliyyatını, Bosniya, Kosovo, Makedoniya, Çeçenistan, Tacikistan, Kəşmir, Hindistan, Yaxın Şərq, Sudan, Nigeriyada 90-cı illərdə başlanmış müsəlman və qeyri-müsəlmanlar arasındakı münaqişələri misal gətirir. ABŞ Dövlət Departamentinin terroru dəstəkləyən dövlətin siyahısında olan yeddi dövlətin beşi müsəlman dövlətidir. 2001-ci il 11 sentyabr hadisələri də guya S.Xantinqtonun sivilizasiyaların toqquşması haqda fikirlərini təsdiqləyir. Amma müasir dünyada hadisələrin vəziyyəti inandırıcı şəkildə göstərir ki, Qərb və Şərq, xristian və müsəlman sivilizasiyaları arasında düşmənçilik fikirləri ilk növbədə qarşılıqlı anlaşılmazlığın məhsuludur, insanları səhvə, yanlışlığa aparmaq cəhdləridir. Əslində təhlükə nə islamda, nə də Qurani-Kərimdə deyil, onları öz məkirli niyyətləri, əyri məqsədləri üçün izah edənlərdədir.

Müasir qərb və rus elmi fikri islamın kollektiv oyunçuya çevrilməsinin bir təzahürü kimi müsəlmanların qərbə köçmələrini göstərir (2, 445). Bir sıra islam intellektləri və politoloqlarının fikrinə görə, bu sadəcə yaxşı iqtisadi imkanlar axtarışı demək deyil, bu həm də xüsusi özünəməxsusluğu olan yeni müsəlman cəmiyyətlərinin yaranması deməkdir. Məşhur fransız islamşünası Olive Rua bu prosesi islamın deterritorializasiyasının yaranması hesab edirdi. Onun fikrinə görə, "yeni icmalar daha ideal ola bilərlər (inamdan başqa bağların olmaması), ənənəvi qrup bağlara əsaslana bilər(ailələrlə endoqam münasibətləri saxlayaraq), amma o həmişə bərpa kimi fəaliyyət göstərir" (3,157).

Paradoksal olaraq yeni mühacirlər çox vaxt belə nəticəyə gəlirlər ki, öz ölkələrində hökm sürən qayda və adətlərin təmiz İslami olmadığına görə, ölkələrindən daha çox, onlar yeni yerləşdikləri qeyri-islam dövlətində azad şəkildə islama ibadət edə bilərlər. İsveçrənin Fribur universistetinin professoru Tarik Ramazan hətta hesab edir ki, müsəlman qərbdə öz dininə daha uyğun yaşaya bilər, nəinki müsəlman ölkələrinin çoxunda (4,101). Əgər bu fikri Qərbin daha liberal və demokratik olması fikrinə əsaslanıb söyləyirlərsə, əlbəttə ki, bu yalnışdır, Qərbə belə pozitiv münasibət tezis kimi qəbul oluna bilməz. Axı bu gün müsəlman ölkələrinin özlərinə də kifayət qədər geri qayıdanlar və yenidən köçənlər var və həmin ölkələr radikal-fundamentalist, eləcə də liberal liderlər tərəfindən idarə olunurlar.

Avropada müsəlman icmalarının sayı (MDB ölkələri istisna olmaqla) sürətlə artmaqdadır. Son onilliklərdə Avropa ölkələrində müsəlmanların sayı iki dəfə artaraq 23 milyona çatıb ki, bu da ümumi əhalinin 5%-i deməkdir. (Müqayisə üçün, 1950-ci ildə Avropa ölkələrində 800 min müsəlman

yaşayırdı). Müasir dövrdə müsəlmanların çox hissəsi Fransada (62 milyondan 6 mil.), sonrakı sırada Almaniyada (82 milyondan 3 mil.), Britaniyada (60 milyondan 1,5 mil.), İtaliyada (58 milyondan 1 mil.), İspaniyada (40 milyondan 1 mil. yaxını) yaşayır. Ehtimal olunur ki, 2025-ci il üçün Avropada müsəlmanların sayı iki dəfə artacaq, 2050-ci ildə isə Avropa əhalisinin 20%-ni (Əgər həmin vaxt üçün Türkiyə Avropa İttifaqına qəbul olarsa, oranın 70 milyon müsəlman əhalisini də nəzərə alsaq, müsəlman əhalinin sayı daha da artacaqdır) təşkil edəcək (2, 447).

Bir sıra müəlliflər Türkiyə faktorunu nəzərə almaqla perspektivdə Avropa əhalisinin əksəriyyətinin müsəlman olacağı fikrini irəli sürürlər. Belə müəlliflər vəziyyətə təsir edə biləcək digər halları nəzərə almırlar. Xüsusilə, Avropanın qeyri-müsəlman əhalisinin artması və ya azalması, müsəlman əhalisinə münasibətdə analoji dinamika, müsəlman əhalisinin yeni qruplarının immiqrasiyasının səviyyəsi, qeyri-müsəlman əhalinin də mümkün immiqrasiyası, Türkiyə əhalisinin sayının dəyişməsinin dinamikası, bəzilərinin yenidən vətənlərinə qayıtması, bir məzhəbdən başqa bir məzhəbə keçənləri və s. qeyd etmək olar. S.Xantinqton da qeyd edirdi ki, "əhalinin sayının belə fövqəladə artımı nəticəsində dünyada müsəlmanların nisbi sayı artmaqda davam edəcək, ... 2025-ci il üçün dünya əhalisinin sayının 30%-ni təşkil edəcəkdir" (5, 90).

Ümumiyyətlə, proqnozlaşdırılması çətin olan bir sıra məsələlər də mövcuddur - müsəlman əhalisinin Avropa cəmiyyətinə inteqrasiyası prosesi hansı istiqamətlərdə gedəcək, dünyəviləşmə prosesinin davam etdiyini nəzərə alsaq XXI yüzilliyin ortalarında özünəməxsusluğun dini markerlərinin rolu necə olacaq? Onu da yaddan çıxarmaq olmaz ki, bugünki Avropada immiqrantlarla qarşılıqlı münasibətlərin müxtəlif modelləri var: Fransada assimilyasiya, Böyük Britaniyada multikulturalizm və Almaniyada olduğu kimi onların arasında olan orta bir münasibət və s. aydın deyil ki, hazırda birləşmiş Avropa İttifaqında hansı model üstün olacaqdır. Ehtimal ki, Avropadan əvvəl postsovet məkanında müsəlmanların sayı üstünlük təşkil edəcək. Zaman axınınında qərb də, İslam da, ümumilikdə beynəlxalq münasibətlər sistemi ilə bütün dünya dinamik dəyişəcək, bu dəyişikliyin necə olacağını proqnozlaşdırmaq vacıb olsa da, çox çətindir.

İslam – monolit və donmuş bir təzahür deyil, o, dünyanın inkişafına adaptasiya etmək üçün dəyişir. Bu, ümumiliklə dəyişkən sosial-iqtisadi, sosial-mədəni, siyasi, geosiyasi və digər şəraitlərə uğurla uyğunlaşmaq üçün dinamik inkişaf edən, dəyişən dini sistemdir.

## ƏDƏBİYYAT


1. Гаджиев К.С. Геополитические горизонты России (контуры нового миропорядка). К.С.Гаджиев. М.: Экономика, 2007, 751с.
2. Современная мировая политика: прикладной анализ. Отв.ред. А.Б.Богатуров. М.: Аспект Пресс, 2009, 588 с.
3. Roy O. Globalized Islam: The Search for a New Ummah. London: Hurst & Company, 2002, p.280

4. Ramadan T. Les musulmans dans la laicite. Responsibilite et des musulmans dans les sosietes occidentales. Lyon: Tawhid, 1994, p. 120.
5. Хантингтон С. Столкновение цивилизаций / С.Хантингтон; Пер. с англ. Т.Велимеева, Ю.Новикова. М.: ООО «Издательство АСТ», 2003, 603 (5) с. (Philosophy).
6. Джордж Фридман. Следующие 10 лет (2011-2012). М.: ЭКСМО, 2011, 317 с.

## ИСЛАМ КАК «КОЛЛЕКТИВНЫЙ ИГРОК»

**А.А. ГЮЛЬАЛИЕВА**

## РЕЗЮМЕ

Исламский мир представляет сложную совокупность природно-географических, региональных и ресурсных, в том числе этнополитических, демографических, языковых, историко-культурных и других факторов, сплотивших в себе многофункциональную, разнообразную, неоднородную структуру. По разным подсчетам на сегодняшний день 1/5 часть населения планеты проповедует ислам, что составляет более 1,5 миллиардов человек. Учитывая многосторонность и сложность процессов, происходящих в исламском мире, в статье анализируется роль исламского мира в системе современных международных отношений с теоретической и практической точки зрения.

**Ключевые слова**: мусульманин, запад, ислам, религия, игрок.

## ISLAM AS A “COLLECTIVE PLAYER”

**A.A.GULALIYEVA**

## SUMMARY

The Islamic world represents a complex set of geographical, regional resources, including the ethnopolitical, demographic, language, historical and cultural and other factors which have rallied in a various, multipurpose, non-uniform structure. By different calculations for today, 1/5 part of the population of the planet preaches Islam that makes more than 1,5 billion people. Considering the versatility and complexity of the processes occurring in the Islamic world, the article analyzes the role of the Islamic world in the system of modern international relations from the theoretical and practical points of view.

**Key words:** Muslim, West, Islam, the religion, the player.